**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının 03 dekabr 2021- ci il tarixli 17(17) nömrəli İclas Qərarı ilə təsdiq edilmişdir.**

**Azərbaycan Respublikasının Qeyri - Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyələşdirdiyi layihələrin əlaqələndirilməsi və icrasına nəzarətin həyata keçirilməsi, icra olunan layihələrin monitorinqinin və qiymətləndirilməsinin aparılmasının müvəqqəti**

# QAYDASI

## 1. Ümumi müddəalar

Bu Qayda Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanının 8.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının Qeyri- Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin (bundan sonra – Agentlik) Nizamnaməsi əsasında hazırlanmışdır və Agentliyin dövlət büdcəsindən ayrılmış, habelə qanunla müəyyən edilən digər mənbələrdən daxil olan vəsait hesabına müsabiqə əsasında və müsabiqədənkənar fonddan maliyyələşdirdiyi layihələrin (bundan sonra – layihə) əlaqələndirilməsi və icrasınanəzarətin həyata keçirilməsi, qeyri-hökumət təşkilatları (bundan sonra – QHT) tərəfindən icra olunan layihələrin monitorinqinin və qiymətləndirilməsinin aparılmasının təşkilati və hüquqi əsaslarını müəyyən edir.

## 2. Ümumi əsaslar

2.1. Agentlik QHT-lər tərəfindən icra olunan layihələrin qanunvericiliyin tələblərinə və qrant müqaviləsinin şərtlərinə uyğunluğunu, icra planında və xərclər smetasında nəzərdə tutulan fəaliyyətlərin səmərəli icra olunmasını, QHT-nin layihədə müəyyən olunmuş məqsədlərə

çatmasını, benefisiarların layihədən yararlanmasını, layihələrin şəffaflığını, ictimai faydalılığını, səmərəliliyini və davamlılığını təmin etmək məqsədilə layihələrin əlaqələndirilməsini və icrasınanəzarəti həyata keçirir.

2.2. Agentlik ilə QHT-lər arasında layihələrin əlaqələndirilməsi və icrasına nəzarətin həyata keçirilməsi ilə bağlı yazışmalar istisna olmaqla, QHT-nin icra etdiyi layihə çərçivəsində görülmüş işlər haqqında aralıq və yekun hesabatların təqdim edilməsi "Qeyri-hökumət təşkilatlarına elektron xidmətlərin göstərilməsinin təkmilləşdirilməsi ilə baglı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 20 noyabr 2013-cü il tarixli 26 nomreli Fərmanına uyğun olaraq həyata keçirilir. Aralıq və yekun hesabatların təqdim edilməsi müddətləri və forması Agentlik iləQHT arasında bağlanılmış qrant müqaviləsi (bundan sonra – müqavilə) ilə müəyyən edilir.

2.3. QHT-nin icra etdiyi layihə üzrə layihənin təsviri, maliyyə hesabatlarının hazırlaması və təqdim edilməsi bu Qayda və müqavilə əsasında həyata keçirilir.

2.4. Agentlik maliyyələşdirdiyi layihələrin əlaqələndirilməsini və icrasına nəzarəti bu Qaydanın və müqavilənin tələbləri əsasında aşağıdakı istiqamətlər üzrə həyata keçirir:

2.4.1. layihənin icra şərtləri;

2.4.2. layihənin icrasına nəzarətin həyata keçirilməsi;

2.4.3. layihənin nəticələrinə dair hesabatlılıq;

2.4.4. layihə nəticələrinin ümumiləşdirilməsi.

2.5. Monitorinq və qiymətləndirmənin məqsədi Agentliyin maliyyələşdirdiyi layihələrin QHT-lər tərəfindən icrası zamanı şəffaflığın, obyektivliyin və hesabatlılığın təmin olunmasının, layihələrinicra, nəzarət, nəticə mərhələlərinin Agentliklə bağlanmış müqavilənin şərtlərinə və tələblərinəuyğun yerinə yetirilməsinin, layihələrin həyata keçirilməsi zamanı müqavilə öhdəliklərinin pozulması və digər sui-istifadə hallarının aşkar edilərək müvafiq tədbirlərin görülməsinin, verilmiş qrantların təyinatı üzrə istifadə edilməsinin, eləcə də, layihə tələblərinə münasibətdə fəaliyyətin, tərəqqinin, səmərəliliyin, təsir və əlaqənin təmin edilməsi və tövsiyələrin verilməsidir.

2.6. Monitorinq və qiymətləndirmənin aparılması:

2.6.1. monitorinqin aparılacağı layihənin müəyyən edilməsi;

2.6.2. monitorinqin aparılacağı layihənin mövzusuna uyğun qanunvericilik aktları, elmi, texnikivə digər norma və standartların öyrənilməsi və müəyyən edilməsi;

2.6.3. məqsəd və məqsədlərinə doğru irəliləməsini təmin etmək üçün layihələrin icra, nəzarətvəziyyətinin və nəticələrinin öyrənilməsi və əldə olunan nəticələrin ümumiləşdirilməsi;

2.6.4. layihənin icra planına uyğunluğunun müəyyən edilməsi;

2.6.5.layihənin icrası zamanı sənədləşmə işlərinin qanunvericiliyə və təlimatlara uyğunluğunun müəyyən edilməsi;

2.6.6. layihənin icrası zamanı yaranmış problemlərin və yol verilən nöqsanların müəyyən edilməsi;

2.6.7. monitorinqin nəticələrinə dair hesabatın hazırlanması;

2.6.8. layihənin məqsəd və vəzifələrə doğru irəliləməsini, səmərəliliyini ölçmək üçün müvafiq meyarlar əsasında layihənin qiymətləndirilməsinin aparılması;

2.6.9. qiymətləndirilmənin nəticələrinə dair rəyin hazırlanması.

## 3. Layihənin icrası şərtləri

3.1. Agentlik tərəfindən layihənin maliyyələşdirilməsi barədə qərar qəbul edildiyi təqdirdə,layihənin maliyyələşməsi aşağıda göstərilən maliyyə mənbələri hesabına həyata keçirilir:

*3.1.1.* Agentliyə dövlət büdcəsindən ayrılmış vəsaitlər*;*

3.1.2. Agentliyin fəaliyyəti nəticəsində əldə etdiyi sərbəst vəsaitlər;

3.1.3. yerli və beynəlxalq təşkilatların verdikləri kreditlər, qrantlar, texniki və maliyyə yardımları;

3.1.4. özəl təşkilatların, sahibkarlıq subyektlərinin ayırdıqları vəsaitlər;

3.1.5. qanunla müəyyən olunan digər mənbələr.

3.2. Layihəsinin maliyyələşməsi barədə qərar qəbul edilmiş QHT ilə Agentlik arasında Agentliyin Müşahidə Şurasının (bundan sonra– Müşahidə Şurası) təsdiq etdiyi formada qrant müqaviləsinin (bundan sonra - müqavilə) imzalanması tarixini Agentlik müəyyən edir.

3.3. Müqavilə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin, “Qrant haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qaydanın müddəaları nəzərə alınmaqla, Agentlik tərəfindən hazırlanır, QHT-yə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 216 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası”nın 1.3-cü bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunması üçün eyni hüquqi qüvvəyə malik olan 2 (iki) nüsxədə Agentliyin İcraçı direktoru (bundan sonra – İcraçı direktor) və QHT-nin rəhbəri və ya onların səlahiyyətlərini icra edən şəxs tərəfindən imzalanır.

3.4. Müqaviləni imzalamamış QHT-lərin layihələrinin Agentlik tərəfindən maliyyələşdirilməsinə yol verilmir.

3.5. Müqavilədə tərəflərin hüquq və vəzifələri, layihənin məqsədi, predmeti, Agentlik tərəfindən QHT qarşısında hansısa şərtlər qoyulmuşdursa, həmin şərtlər, layihənin qısa məzmunu, həll olunması nəzərdə tutulan məsələlər, layihənin icra edilməsi mərhələləri və icra müddəti, layihənin icra ediləcəyi inzibati ərazi vahidi (və ya vahidləri), gözlənilən nəticələr və tətbiq imkanları, layihənin maliyyələşmə həcmi və qaydası, layihə monitorinqinin keçirilməsi və hesabatların təqdim edilməsi barədə müddəalar öz əksini tapır.

3.6. Müşahidə Şurası tərəfindən maliyyələşməsi barədə qərar qəbul edilmiş layihələr üzrə ödənişlər aşağıdakı formada həyata keçirilir.

3.6.1. Müqavilə bağlanıldıqdan sonra vəsaitin 70 (yetmiş) faizi, layihənin tam icrası ilə bağlı yekun təsviri və maliyyə hesabatları təqdim edildikdən sonra isə vəsaitin qalan 30 (otuz) faizi QHT-nin müvafiq bank hesabına köçürülməklə.

3.6.2. Müqavilə bağlandıqdan sonra Müşahidə Şurasının Qərarı ilə tam həcmdə - vəsaitin 100 (yüz) faizi QHT-nin müvafiq bank hesabına köçürülməklə.

3.7. Qrant məbləğindən rüsumlar və dövlət büdcəsinə müvafiq məcburi ödənişlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir. Layihənin icrası zamanı vergitutma məsələləri Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə, qrant məbləğinin məcburi dövlət sosial sığortasına cəlb olunması “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

3.8. Qrant vəsaiti yalnız müqavilədə və ya layihənin maliyyələşməsi barədə qərarda göstərilən məqsədlərin həyata keçirilməsi üçün istifadə oluna bilər. Qrantın başqa məqsədlər üzrə istifadə olunması, əgər müqavilədə və ya qərarda nəzərdə tutulmamışdırsa, ancaq Agentliyinn əlavə yazılı razılığı ilə mümkündür.

3.9. Layihənin icra planında və xərclər smetasında dəyişikliklər layihə icraçısının əsaslandırılmışmüraciəti əsasında Müşahidə Şurasının razılığı ilə İcraçı direktor tərəfindən təsdiq edilir.

3.10. Layihə üçün ayrılmış vəsait tam xərclənmədikdə, qalıq məbləğ layihənin icra müddəti bitdikdən sonra Agentliyin hesabına qaytarılır.

3.11. QHT-yə ayrılmış qrant vəsaitindən sub-qrant ayrılması yolverilməzdir.

3.12. Agentliyin maliyyələşdirdiyi qrant hesabına QHT tərəfindən hazırlanan çap, audio, audio-vizual, kino və başqa materiallarda, keçirilən konfrans, seminar və digər ictimai tədbirlərdə bunların maliyyələşdirmə mənbəyi haqqında məlumat verilməlidir, eləcə də Agentliyin və QHT-nin loqotipinin təsviri təmin olunmalıdır.

**4.Layihələrin icrasına nəzarətin həyata keçirilməsi**

4.1. Agentlik maliyyələşdirdiyi layihələrin icrasına və verdiyi qrantın təyinatı üzrə istifadə edilməsinə nəzarəti həyata keçirir.

4.2. Layihənin icrasına nəzarətin həyata keçirilməsi məqsədi ilə Agentlik maliyyələşdirdiyilayihələr üzrə aralıq və yekun hesabatlar tələb etmək, monitorinq keçirmək, müşahidə vəqiymətləndirmə aparmaq hüququna malikdir.

4.3. QHT tərəfindən icra olunan layihə üzərində müşahidələrin aparılması dedikdə, Agentliyin QHT-dən xüsusi izah və arayış tələb etmədən yalnız bu Qaydaya əsasən QHT-nin təqdim etdiyi məlumatları qəbul etməsi, öyrənməsi, müqayisə etməsi və həyata keçirilən tədbirlərdə iştirak etməsi nəzərdə tutulur.

4.4. QHT tərəfindən icra olunan layihə üzərində monitorinqlərin aparılması dedikdə, layihə üzrə işlərin başa çatmasınadək Agentliyin əməkdaşının QHT-nin həyata keçirdiyi layihənin işində iştirak etməsilə, yaxud iştirak etmədən QHT- dən bu Qaydaya əsasən təqdim etməli olduğu məlumatlarla yanaşı, arayışlar tələb etməklə əldə etdiyi məlumatları öyrənməsi, müqayisə etməsi, həmçinin təhlillər aparması və bu barədə monitorinq hesabatını tərtib etməsi nəzərdə tutulur.

4.5. QHT Agentliyin icra olunan layihə üzrə müşahidə və monitorinq aparması üçün lazımi şərait yaradır. Agentlik tərəfindən aparılan müşahidə və monitorinq tədbirləri layihə məqsədlərinin həyata keçirilməsinə maneə yaratmır.

4.6. QHT layihənin icra dövründə qrant müqaviləsi ilə üzərinə düşən öhdəlikləri vaxtında və tələb olunan səviyyədə həyata keçirmədikdə, QHT-yə Agentliyin elektron xidməti vasitəsilə yazılı xəbərdarlıq edilir. Belə bir xəbərdarlıqdan sonra QHT qrant müqaviləsi ilə üzərinə düşən öhdəlikləri vaxtında və tələb olunan səviyyədə həyata keçirməməkdə davam etdikdə, Agentliktərəfindən QHT ilə bağlanılmış qrant müqaviləsinin ləğvi və ödənilmiş vəsaitin geri qaytarılmasıilə bağlı müvafiq tədbirlər görülür.

4.7. QHT tərəfindən icra olunan layihələrdə maraqların toqquşmasına yol verilmir. QHT-nin rəhbəri (və ya layihə rəhbəri) şəxsi maraqlarını təmin etmək məqsədilə hərəkətlərdən

(hərəkətsizliklərdən) çəkinməlidir. Layihənin icrasına nəzarət nəticəsində QHT rəhbərinin (və ya layihə rəhbərinin) layihənin icra prosesində şəxsi maraqları və icra edilmiş tədbirin nəticələrinifaktiki vəziyyətə uyğun olmayaraq rəsmiləşdirilməsi aşkar olunarsa, Agentlik tərəfindən QHT- yə xəbərdarlıq edilir, xəbərdarlığa məhəl qoyulmadığı halda qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirlər görülməsi üçün aidiyyəti dövlət orqanlarına müraciət edir.

## 5. Layihə nəticələrinə dair hesabatlılıq və ümumiləşdirmə

5.1. QHT Agentliyin elektron xidməti vasitəsilə icra olunmuş layihənin nəticələrinə dair yekun təsviri və maliyyə hesabatlarını təsdiqləyici sənədlərlə birlikdə Agentliyə təqdim edir. HesabatlarMüşahidə Şurasının təsdiq etdiyi formada Azərbaycan dilində tərtib edilir.

5.2. QHT tərəfindən təqdim olunan təsviri hesabat dedikdə, layihənin icra planı üzrə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin keyfiyyət və kəmiyyət səviyyəsini müəyyən edən, ölçüləbilən faktiki nəticələrin məcmusu nəzərdə tutulur.

5.3. QHT tərəfindən təqdim olunan təsviri və maliyyə hesabatı dedikdə, layihənin icra planı və xərclər smetası üzrə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin maliyyə məzmunu və əsaslarına dair hazırlanmış ümumi nəticələri nəzərdə tutulur.

5.4. QHT tərəfindən təsviri və maliyyə hesabatları müqavilədə nəzərdə tutulmuş müddət ərzində Agentliyə təqdim olunur. Agentlik qəbul etdiyi təsviri və maliyyə hesabatlarına 10 (on) iş günü müddətində baxır. Agentlik hesabatların yoxlanılması zamanı layihənin icrası və nəticələri barədə daha ətraflı təsəvvür əldə etmək üçün QHT-dən Agentlik tərəfindən təsdiq edilmiş sənəd siyahısına uyğun sənədlərlə yanaşı, əlavə məlumat və sənədlər tələb etmək hüququna malikdir.

5.5. QHT-nin təqdim etdiyi təsviri və maliyyə hesabatları layihənin icra planına və xərclər smetasına uyğun olduqda, hesabatların qəbulu tərəflər arasında imzalanmış müvafiq akt ilə təsdiq olunur.

5.5.1.Agentlik tərəfindən QHT-yə bu Qaydanın 3.6.1-ci maddəsi ilə ödənilməsi nəzərdə tutulan maliyyə vəsaitinin digər hissəsi müvafiq aktın imzalanmasından sonra həyata keçirilir.

5.5.2. Agentlik tərəfindən QHT-yə bu Qaydanın 3.6.2-ci maddəsi ilə ödənilməsi nəzərdə tutulanlayihələr üzrə QHT-nin təqdim etdiyi təsviri və maliyyə hesabatları layihənin icra planına və xərclər smetasına uyğun olduqda, hesabatların qəbulu tərəflər arasında imzalanmış müvafiq akt ilə təsdiq olunur.

5.6. QHT-nin təqdim etdiyi təsviri və maliyyə hesabatlarının hər hansı birində layihənin icra planı və xərclər smetası ilə uyğunsuzluq halı və ya çatışmazlıq aşkar edildikdə, Agentlik tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirlər görülür. Bu uyğunsuzluq və ya çatışmazlığınaradan qaldırılması qanunvericiliyin tələblərinə və layihə məqsədlərinə zidd olmadıqda, QHT-yəbu halın və ya halların aradan qaldırılması üçün 10 (on) iş günü müddətində vaxt verilir. Qeydolunan müddət daxilində bu hal və ya hallar aradan qaldırılmadıqda, maliyyə vəsaitinin geri qaytarılması ilə bağlı müvafiq tədbirlərin görüləcəyi haqda tələb bildirişi QHT-nin Agentliyin elektron xidmətindəki poçt qutusuna göndərilir, Agentlik əməkdaşının təqdimatı və İcraçı direktorun göstərişi əsasında maliyyə hesabatı üzrə təsdiqini tapmayan müvafiq fəaliyyətlər üçün bu Qaydanın 3.6.1-ci yarımbəndində nəzərdə tutulmuş maliyyə vəsaitinin ödənişi dayandırılır və ya ödənilmiş maliyyə vəsaitinin QHT-dən geri alınması üçün qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirlər görülür, QHT 2 (iki) ilədək müddətə Agentliyin elan etdiyi qrant müsabiqələrində iştirak hüququndan məhrum edilir

5.7. Agentlik QHT-lər tərəfindən layihələrin həyata keçirilməsi zamanı müqavilə öhdəliklərinin pozulması hallarını aşkar etdikdə, qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirlər görülməsi üçün aidiyyəti dövlət orqanlarına müraciət edir.

5.8. layihənin icrasına dair təqdim olunmuş hesabatlar Agentlik tərəfindən qəbul olunduqdan sonra QHT-yə bu sənədlərin əslini və ya surətlərini qanunvericiliyə uyğun olaraq saxlamaq və arxivləşdirmək tövsiyə olunur.

5.9. QHT-lər tərəfindən müsabiqə çərçivəsində icra olunan layihələrin nəticələri Agentlik tərəfindən layihənin icra müddəti bitdikdən sonra 15 (on beş) iş günü ərzində ümumiləşdirilir.

5.10. Ümumiləşdirilmiş məlumatlar layihənin icra müddəti bitdikdən sonra 7 (yeddi) iş günü ərzində Agentliyin rəsmi internet səhifəsində yerləşdirilir.

## 6. Monitorinq aparılmasının şərtləri, forma və üsulları

6.1. Agentlik maliyyələşdirdiyi icra olunan layihələrin icrası və nəticələri ilə bağlı mütamadi olaraq monitorinqlər aparır.

6.2. Agentlik maliyyələşdirdiyi icra olunan layihələrin proqram və maliyyə monitorinqini keçirəbilər.

6.3. Agentliyin maliyyələşdirdiyi layihələrin hərtərəfli, sahəvi, səbəbli faktorlar üzrə, təsadüfi seçim formalarına uyğun monitorinqi aparılır.

6.4. Agentliyin maliyyələşdirdiyi layihələrin monitorinqi qeydlərin aparılması, monitorinq anketi,birbaşa müşahidə, müsahibə (o cümlədən elektron və ya onlayn müsahibə), sorğu (o cümlədənelektron sorğu), test, fokus qrup müzakirələri və digər üsullarla ilə aparıla bilər.

6.5. Agentliyin maliyyələşdirdiyi layihələrin icrası və nəticələri ilə bağlı monitorinqlər, bir qaydaolaraq, Agentlik tərəfindən QHT-nin həyata keçirdiyi layihənin işində iştirak etməklə aparılır. Zərurət yarandığı halda, dövlət orqanlarının nümayəndələri, müqavilə əsasında müstəqil ekspertlər, digər hüquqi və fiziki şəxslər monitorinqin aparılması prosesinə cəlb oluna bilər.

6.6. Agentlik maliyyələşdirdiyi beynəlxalq layihələr üzrə xarici ölkələrdə keçirilən tədbirlərin monitorinqinin aparılması məqsədilə Müşahidə Şurasının üzvləri, Agentliyin əməkdaşları, müqavilə əsasında cəlb olunan müstəqil ekspertlər həmin ölkələrə ezam oluna bilər.

6.7. Monitorinqlər layihənin icra olunduğu ərazidə, QHT-nin ofisində, layihə ofisində və Agentliyin ofisində aparıla bilər.

6.8. Monitorinqin səmərəli aparılması üçün QHT tərəfindən şərait yaradılır, layihə fəaliyyətlərinin icra vaxtı və keçiriləcəyi məkan haqqında Agentliyə əvvəlcədən (ən azı 7 iş günü əvvəl) yazılıvə ya elektron formada məlumat verilir.

6.9. Agentlik həyata keçirilən tədbirlərin, fəaliyyətlərin monitorinqini aparmasından 1 (bir) iş günü əvvəl QHT-ni məlumatlandırır və monitorinqin aparılması müddətləri müqavilə ilə tənzimlənir.

6.10. Agentlik QHT-nin həyata keçirdiyi layihənin işində iştirak etmədən monitorinq apara bilər.Bu halda QHT-dən bu Qaydaya əsasən təqdim etməli olduğu sənəd və məlumatlarla yanaşı, arayışlar tələb oluna bilər. Təqdim olunmuş sənəd, məlumatlar və arayışlar əsasında müqayisələr, təhlillər, ümumiləşdirmələr aparılır, əldə olunan qənaətlər monitorinq hesabatına daxil edilir. QHT monitorinq zamanı uyğun layihənin icrası ilə bağlı sənədləri tələb olunan müddətdə Agentliyə təqdim etməlidir.

6.11. Layihənin icra və hesabatı müddətində aparılan monitorinqin keçirilməsindən sonra 10 işgünü müddətində əldə edilmiş yekun qənaət haqqında Agentlik tərəfindən tərtib olunmuş formaya uyğun olaraq monitorinq hesabatı hazırlanır.

6.12. Monitorinq hesabatı aşağıdakı strukturdan ibarətdir:

6.12.1. layihə haqqında ümumi məlumatlar;

6.12.2. icra planı üzrə nəzərdə tutulan tədbirlər və fəaliyyətlər;

6.12.3. icra planı üzrə nəzərdə tutulan tədbirlərin və fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti, təsdiqləyici sənədlər haqqında məlumatlar;

6.12.4. icra planı üzrə nəzərdə tutulan tədbirlərin və fəaliyyətlərin layihənin xərclər smetasına uyğunluğu, təsdiqedici sənədlər haqqında məlumatlar;

6.12.5. layihənin proqram və maliyyə icra vəziyyəti haqqında əldə olunan qənaətlər və tövsiyələr.

6.13. Monitorinq hesabatı Agentliyin İcraçı direktoruna təqdim olunur. Monitorinq hesabatına uyğun olaraq layihənin icrasında nöqsanlar və çatışmazlıqlar aşkar olunduqda, Agentlik tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirlər görülür.

6.14. Monitorinqin nəticəsinin rəsmiləşdirilməsi üçün 2 (iki) nüsxədə akt hazırlanır və imzalanır.

## 7. İcra olunan layihələrin qiymətləndirilməsi

7.1. Agentlik QHT tərəfindən icra olunan layihənin məqsəd və vəzifələrə doğru irəliləməsini, səmərəliliyinin ölçülməsi və nəticələrin müəyyən edilməsi ilə bağlı müvafiq plan əsasında qiymətləndirmə aparır.

7.2. Agentlik tərəfindən qiymətləndirmənin aparılması zamanı səmərəlilik, hesabatlılıq, şəffaflıq,obyektivlik və qərəzsizlik prinsipləri rəhbər tutulur.

7.3. Agentlik tərəfindən aparılan qiymətləndirmə QHT tərəfindən icra olunan layihə tələblərinə münasibətdə fəaliyyətin, tərəqqinin, səmərəliliyin, təsir və əlaqənin dövri qiymətləndirilməsini əhatə edir.

7.4. QHT tərəfindən icra olunan layihənin icra planınına uyğun icrası, məqsədlərə nail olmaq baxımından təsiri və nəticələrinin qiymətləndirilməsi Agentlik əməkdaşları tərəfindən ölçülə bilən indikatorların (kəmiyyət və keyfiyyət göstəriciləri) və meyarların öz əksini tapdığı qiymətləndirməanketi vasitəsilə aparılır.

7.5. QHT tərəfindən layihə iştirakçılarının qiymətləndirmədə iştirakı təmin olunur.

7.6.Layihənin qiymətləndirilməsinin keçirilməsindən sonra 5 (beş) iş günü müddətində Agentlik əməkdaşları tərəfindən əvvəlcədən tərtib olunmuş formaya uyğun olaraq qiymətləndirmə rəyi hazırlanır.

7.7. Qiymətləndirmə rəyi Agentliyin İcraçı direktoruna təqdim olunur və rəyə uyğun olaraq Agentlik tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirlər görülür.

## 8. Yekun müddəa

Agentlik öz əməkdaşları və QHT-lər üçün layihələrin əlaqələndirilməsi və icrasına nəzarətin həyata keçirilməsi, icra olunan layihələrin monitorinqinin və qiymətləndirilməsinin aparılması ilə bağlı təlim, məsləhət və seminar xarakterli tədbirlər təşkil edir.